# SÖZÜ, ŞEİRİ UCUZ OLMAYAN ŞAİR

*Ayağım altında Vətən torpağı,*
*Üstündə gəzirəm, ayaqlamıram.*

***Bahadur Fərman***

**Deyirlər ki, yaradıcı insanlar -bioloji ömürlərini başa vurduqdan sonra, bu dünyada əmanət qoyub getdiyi sənət əsərləri onların ikinci ömrünün davamçısına çevrilir, zaman-zaman xatırlanır və unudulmurlar.**

Onu da vurğulamaq gərəkdir ki, xatirələrdə həqiqəti söyləmək böyük tariximizə hörmət etmək deməkdir!

Bəzən olur ki, istedadlı bir qələm sahibinin yaradıcılığı nədənsə unudulur, diqqətdən kənarda qalır, görünmür, və ya görmək istəmirlər, bəzən də ideologiyaya xidmət etməkdə günahlandırırlar və. s.

Bizim - dogma Gəncəmizdə yazıb- yaratmış, Azərbaycan poeziyasına 70-ci illərdə gəlmiş, sözə həssas, olduqca təvəzökar, gözəl şair Bahadur Fərmanı unutmağa haqqımız yoxdur.

Şair özünə ithaf etdiyi şeirdə bu məsələyə toxunaraq zamanın kəc rəftarında , yaradıcı insanların unudulmasının sonrakı peşmançılığını aşağıdakı kimi ifadə etmişdir.

*Dünyanı dərk edən, hissə qapılmaz,*
*Nə qədər qaya var, çapsan çapılmaz,*
*Görünmək istəsən, görən tapılmaz,*
*Sonra çıraq alıb, gəzərlər səni.*

B.Fərmanın uşaqlıq illəri Böyük Vətən müharibəsi dövrünə düşmüşdür.

O müharibənin törətdiyi fəlakətlərin ağrı-acılarını yaşamış, arxa cəbhədə sadə, səmimi kənd adamlarının üzləşdiyi çətinliklərin, dəhşətli aclıq əzabina sinə gərən "müharibə uşaqları"nın aci talelərinin və.s. şahıdı olmuş , və bütün bunlar onun uşaq yaddaşında silinməz izlər buraxmışdır. Ona görə də şairin yaradıcılığının ilkin dövründə müharibə mövzusu onun yaradıcılığından yan keçməmiş, diqqətini cəlb etmiş və cox ciddi poetik nümunələr yaratmağa nail olmuşdur. Cəbhədən gələn "Qara kağızlar"ın arxada bir nəsli yaralamasını, faşist yangısında sevgisi yanan qız -gəlinlərimizin fəryad səslərini, ac komalarda yaşayan qoltuq ağacına ləlik qalmış insanların acı taleyinin və.s.poetik mənzərəsini ürək ağrısız oxumaq mümkün deyil. "Anam çörək bişirir" şerində müharibə dövrünün aclığını əks etdirən poetik misralar tarixi reallığı olduğu kimi oxucuya çatdırır. Şeirin sonunda bir işiq da var. Bu işiq oxucunu bu üzücü məqamdan sanki çıxarmağa kömək edir.

*Analar bu dərdi çətin unuda,*
*Biz qovruq düşmüşük, sormayın niyə?*
*Kəpəyi çox olan arpa unu da,*
*Bir vaxt ələnmədi, azalar deyə.*

Və ya

*Məni qınamayın unutmamışam,*
*Kövrək könüllərin dağlandığını*
*Məni qınamayın unutmamışam.*
*Kənddə dəyirmanın bağlandığını.*

Və ya

*Anam çörək yapır, şaddır ürəyim.*
*Qorxunu əridir, dərdi əridir.*
*Kündə daşıyıram, bircə söz deyim,*
*Kündələr pis günün nöqtələridir.*

B. Fərmanın müharibənin doğurduğu fəlakətlərdən bəhs edən şeirləri "Osvensim kədəri", "Askol Murad", "Şəkər nənə", "İsmayıl", "Mürsəl baba," " Ağlayan daşlar", və s. çağdaş Azərbaycan poeziyasında müharibə mövzusunda yazılmış ən uğurlu poetik nümunələr olaraq bu gün də öz öncüllüyünü saxlamaqdadır. Maraqlı odur ki , bu insalar Şairin doğulduğu Daşkəsən rayonunun "Muşavaq" kəndinin sadə, səmimi sakinləri olmuşlar.

"Osvensim kədəri " şeiri - hərbi faşizm düşərgəsində diri- diri yandırılan, əsir düşmüş insanların faciəli taleyini əks etdirir. Yandırılmış insanların səmada dəfn olunmaları fikiri oxucuda heyrət doğurur və ağıla gəlməyən bu poetik misralar şairin dini-fəlsəfi dünya görüşünün zənginliyindən xəbər verir. Mənə görə (subyektiv fikir) "Osvensim" şeiri dünyada müharibə mövzusuna həsr edilmiş ən qiymətli poetik inci nümunələrindən kimi qəbul edilməlidir. Osvensim hadisələrini erməni faşistləri 26 fevral 1992 ci ildə, Xocalıda 56 nəfər dinc, silahsız mülki azərbaycanlını diri-diri yandıraraq Azərbaycan xalqina və Bəşəriyyətə qarşı insanlığa sığmayan vəhşiliyi həyata keçirməklə tarixi faciəni bir daha təkrar etmişlər.

***Burda milyon-milyon yarımçıq ömür,***
***Burda həyat eşqi dəf olunubdur .***
***Burda torpaq üstə qəbir görünmür ,***
***Yananlar səmada dəfn olunubdur .***

Bu məkandan təyyarələrin uçmasını istəməyən şair, oxucunu bir daha yenidən həyacanlandırır, düşünməyə vadar edir .

Görəsən niyə? İncidilmiş ruhların yenidən narahat ola bılmələri təxəyyülü - bu zərif hisslər şairinə, böyük məhəbbət duyğuları aşılayır. Bahadur Fərman müqəddəs ruhlar aləminə ali insani duyğularını və ilahi dualarını poeziyanin dili ilə aşağıdakı kimi çatdırır.



***Dönüb göz yaşına səyyarələr də,***
***Göynər korun-korun ürəkdə dağlar.***
***Qoy burdan ötməsin təyyarələr də***
***Səma qəbristanı uçar, dağılar...***

"Şəkər nənə" şeirində - yeganə oğlu davadan qayıtmayan Şəkər nənə əslində müharibə dövrünün aci taleyini yaşamış ümumiləşdirilmiş " Azərbaycanlı Ana" obrazidir.

Dərdi ağır idi. Lakin ananın ümid çırağı sönməmişdi. Müqəddəs ilahi duaları ilə oğlunu qaytarmaq istəyi ilə gözlərini yollardan çəkməyən ana dərdin - qəmin şəklinə çevrilmişdir.

Oğul həsrəti urəyini göynədəndə Şəkər nənə qonum-qonşulara belə deyərdi:

***Yüz qurban kəsərəm qayıtsın təki,***
***Balamın boynuna dolansın qolum.***
***Yolları gözümün içindən çəkin,***
***Görüm hansı yolla qayıdır oğlum.***

Bütün kənd bu fədakar ananın kədərinə köklənmişdir. Şəkər nənə də əslində müharibə qurbanıdır, şəhiddir! Oğluna qovuşmadıqca yuxusu ərşə çəkilir, narahat ana ruhunun gözləri yollara dikili qalır. Ona görə də kənd camaatı haqlı olaraq qəbrin səmtini, ana üçün qiblə əvəzi - "oğul gələn yol"a qazdılar.

***Qəbrinin səmtini yola qazdılar.***
***İndi də yollara baş daşın baxır!***

"Askol Murad" şeiri də müharibə mövzusunda yazılmış maraqlı poetik nümunədir. Cəbhədən köksündə qəlpə gətirmiş Murad kişinin qarşılanma səhnəsi, doğma kəndlərimizin müharibə zamanı üzləşdiyi həyat -həqiqətləri, canlı , poetik boyalarla əks olunmuşdur.

"Əsgər gəlir, əsgər gəlir!" sevincinə tamarzı kəndlərimizdə əslində başı papaqlı qalmamışdı.

Kənddə 8-10 yaşlı uşaqlar daha uşaq deyil , kişi idilər. Çobanlıq, naxırçılıq, xəbər aparıbgətirmək və s. bir qayda olaraq "uşaq -kişilərə" tapşırılırdı. Murad kişinin gəlişini kənd camahatı uşaqdan-böyüyə hami hərarətlə, sevinclə qarşılayır. Şair bu sevincə təbiətin də qoşulduğunu göstərməklə, şeirin poetik təsirini daha da gücləndirməyə, emosiyaların canlanmasına nail olmuşdur.

***Qaçdı dərələrə, qaçdı dağlara,***
***Cığırlar xoşxəbər poçtalyon kimi.***
***Onun ləpirini tamarzı yollar,***
***Asdı yaxasından medalyon kimi.***

Və ya,

***Mürsəl kişi ilə görüşə gəldi o axşam,***
***5 qoca kişiylə 150 arvad...***

O gündən tarixi yaddaşın daşıyıcısı kimi "Askollu nəsili" bir kəndin, bir xalqın qan yaddaşında yaşamaq hüququ qazandı. Müharibə yaddaşını əks etdirən poetik misralar:

***Böyüdü Muradın uşaqları da,***
***Qanı bəhrə verdi, itmədi adı.***
***Muradlı nəslinin adı dəyişdi***
***Bir nəsil yarandı- Askollu nəsil.***

Böyük Vətən müharibəsində itkin düşmüş İsmayıl bir kəndin nigarançılığına, həsrətinə çevrilmişdir. 20 yaşında davaya yola düşüb, həyatın acı üzü ilə rastlaşmış gəncin taleyi, Vətənə qayıtmaması kənd adamlarını daima narahat edir. Əsir və itkin düşənlərin Vətənə dönmək qorxusu - işgəncələr, Sibir sürgünlərinin gözlənilməsi, güllələnmələr bir çox günahsız insaların mühacirətdə həyatlarını davam etdirmək məcburiyyətində qoymuşdur. Bir kəndin İsmail həsrəti, İsmail nigarançılığı şair qələmində:

***Yaşın iyirmiydi ,burdan gedəndə,***
***Adlaya bildinmi iyirmi birə?***

Və ya,

***Niyə qayıtmırsan, ləngidin yaman,***
***Bəlkə düşünürsən ,unudulmusan?***

Və ya,

***Sən ordan, biz burdan Günəşə baxsaq***
***Görən görüşərmi baxışlarımız.?***

Maraqlıdır "Ağlayan daşlar" şeirində söhbət müharibənin gedişindən, döyüş səhnələrindən, silahların guruldamasından getmir. Böyük Vətən müharibəsində həlak olan, itkin düşən, doğma yurduna qayıda bilməyən oğullarımızın yarımçıq qalmış arzularından ev tikmək üçün nə vaxtdansa həyətlərdə topa-topa tökülüb qalmış daşların dərdini, daş dilində duya-duya əzabverici düyğularla söhbət acılır.

***Neyçin,görən, tikməyib ev sahibi evini?***
***Mamırlayıb bu daşlar,alaq basıb dibini .***
***Bir gözəlin yerişidir, daş olub.***
***Bir bacının gülüşüdür, daş olub.***
***Daşlara baxıram, nəm içindədir.***
***Nakam arzuların güzeyidir o.***
***Daşlara baxıram, qəm içindədir.***
***İtkin düşənlərin muzeyidir o.***

Bahadur Fərmanın yaradıcılığında Vətənimizin təzə yaraları 20 Yanvar faciəsi, Xocalı soyqrımı, Qarabağ savaşı, Şuşanın işgalı və s böyük ürək ağrısı ilə verilmiş və yaddaşlarda silinməz izlər buraxmışdır.

Torpaqlarımızın 20%-dən çoxu düşmən taptagındadır. İndi o yerlərə də yaz gəlir, bənövşə bitir. Məlumdur ki, bənövşə cox yerdə bitir.

Lakin, Qarbağ ünvanlı bənövşənin özgə taleyi, dərdi var. Şeirdə " Səni yadlar iylədi" ifadəsini şair Qarabağ ünvanlı bənövşənin həyatına təcavüz olunması kimi dəyərləndirir. Bu hal- şair ürəyindən bir ox kimi keçib,onun köksünü dağlayır. Vətənimizin Qarabağ dərdiyolumuzu gözləyən boynu bükük bənövsə timsalında, kövrək hisslərlə verilməsi, istər-istəməz oxucu qəlbinin göynərtisinə- agrısına çevrilir.

***Daha mənsizləşir Qarabağlı bənövşə?!***
***Döz ay Bahadur, döz ay Bahadur!***
***Könlün dərddən inlədi.***
***Bu oyundu, hiylədi.***
***Səni yadlar iylədi, köksü dağlı bənövşə!***

***Uzun sözə lüzum yox,***
***Daha məndə dözüm yox.***
***Görüşməyə izin yox.***
***Yolu bağlı bənövşə!***

***Bu həsrətlər, qüssələr***
***Yaran üstə duz ələr.***
***Boynun nə vaxt düzələr?***
***Qarabağlı bənövşə!***

Gəncə şəhərindəki 12 -nömrəli orta məktəbdə dərs dediyi, könüllü cəbhəyə getmiş 15 və 17 yaşlı şəhid şagirdlərini Səbuhi və Vaqifi ürək yanğısı ilə tez-tez xatırlayaraq göz yaşlarını saxlaya bilmədiyinin şahidi olmuşam! Anası ölmüşlər,davamı görmüşlər deyib köks ötürərdi.

***Xoş gördük Səbuhi,***
***Xoş gördük Vaqif!***
***Torpaqda kök atıb bitən yaşayır.***
***Siz şəhid oldunuz ölməsin Vətən,***
***Sizin ömrünüzü Vətən yaşayır!***

Və ya,

***Yurda yağı girdi sinəniz səngər.***
***Yiyəsi gərəkdir adi daşında.***
***Siz əsgər oldunuz -əbədi əsgər,***
***17 yaşında,15 yaşında.***
***20 yanvar faciəsinin ağrısı Şair qələmində***

***Qan içində boğulmadıq,***
***Qul olmağa doğulmadıq.***
***Ha qırdılar soğulmadıq,***
***Yanvar ayı - səhid günü.***

***Anam bu daş yad daşıdı,***
***Sərvətimi yad daşıdı.***
***Millətimin yaddaşıdı,***
***Yanvar ayı şəhd günü.***

Atası Qarabağ cəbhəsində şəhid olmuş uşağımı, kədərinin ağrı-acısını,uşaqlıq sevincinin yoxa çıxmasını körpə balamızın dili ilə belə duyğulandırır.

***Uşaqlıq sevincim, atamla birgə,***
***Sənə Qarabagda güllə dəyibdir.***

Bahadur Fərmanın içtimai yüklü, fəlsəfi şeirləri də diqqətə layiqliyi ilə yaddaşlarda yaşayır. Onun yaradıcılığında sadəlik və fikir aydınlığı, fəlsəfi və içtimai yük həyatın özündən yaradıcılığına süzülür, ən əsası odur ki onu uydurmur. "Şimşək" , "Bir şair kədəri", "Məmur hikkəsi", "Dörd cıgır", " ,Naxırçının dedikləri" və başqa uyğun süjetli şeirlər bunun bariz nümunəsidir. "Şimşək" - şeirində təbiət hadisəsi -- simşəyin çaxmasının poetik mənzərəsi o dərəcədə gözəl və dəqiq təsvir edilmişdir ki, insanda sevinc ilə yanaşı həm də qibtə və heyran olmaq hissi yaradır. Şeirdə Vətən qayğısı, el dərdi, dərin düşüncə və fəlsəfi fikir alt qatda verilir. Öləndə işığa dönüb ölmək!

**Bax əsas fikir burada cəmləşmişdir. M.Müşviq, Əhməd Cavad, Hüseyin Cavid, Salman Müntaz, Almas İldırım və başqaları şimşək ömrü yaşadılar! Qısa və işıqlı ömür! O işıq azadlıgı əlindən alınmış xalqımızın yaddaşında köləlik zəncirindən azad olmaq üçün fədailik rişələrini səpdi. O işığı sönməyə qoymayan Vətən oğulları, qudrətli qələm sahibləri -Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Yusif Səmədoğlu , o taydan M.Şəhriyar və başqaları doğuldu. O işıq zamanın diqtəsi ilə yenidən saçıldı, parladı, və xalqımız yenidən öz müqəddəs azadlıgına qovuşdu.**

***Döyüb buludları, qançır eyləyər,***
***Çatar mənzilinə,orda sönər o.***
***Bir anda dünyaya işıq ələyər,***
***Öləndə işığa dönüb, ölər o***

**(ardı var)**
**Sakit Təbib.**
**Gəncə**